# İnşaat və quraşdırma risklərinin kompleks sığortası Qaydaları

## MÜNDƏRİCAT


| | |
|---|---|
| ANLAYIŞLAR | 3 |
| ÜMUMİ MÜDDƏALAR | 4 |
| Maddə 1. Sığortaçı | 4 |
| Maddə 2. Sığortalı | 4 |
| Maddə 3. Faydalanan şəxs | 4 |
| BÖLMƏ I. MADDİ ZƏRƏR | 4 |
| Maddə 4. Sığorta təminatı | 4 |
| Maddə 5. Bu bölmə üzrə təminata daxil olmayan hallar (istisnalar) | 4 |
| Maddə 6. Sığorta məbləği | 5 |
| Maddə 7. Sığorta ödənişi və zərərlərin tənzimlənməsi | 6 |
| Maddə 8. Təminatın genişləndirilməsi | 6 |
| Maddə 9. Ətrafdakı əmlak | 6 |
| BÖLMƏ II. ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏSULİYYƏT | 7 |
| Maddə 10. Sığorta təminatı | 7 |
| Maddə 11. Bu bölmə üzrə təminata daxil olmayan hallar (istisnalar) | 7 |
| Maddə 12. Bölmə II-yə aid xüsusi şərtlər | 8 |
| BÖLMƏ III. SİFARİŞÇİNİN (PRİNSİPALIN) GƏLİR İTKİSİ | 9 |
| Maddə 13. Sığorta təminatı | 9 |
| Maddə 14. Anlayışlar | 9 |
| Maddə 15. Bu bölmə üzrə təminata daxil olmayan hallar (istisnalar) | 10 |
| Maddə 16. Sığorta müddətindəki dəyişiklik | 11 |
| Maddə 17. Zərərlərin tənzimlənməsi | 11 |
| Maddə 18. Sığorta haqqının hesablanması | 12 |
| Maddə 19. Bu bölməyə aid xüsusi şərtlər | 12 |
| BÖLMƏ IV. BÜTÜN BÖLMƏLƏRƏ AİD ÜMUMİ ŞƏRTLƏR | 14 |
| Maddə 20. Müddəaların aidiyyatı | 14 |
| Maddə 21. Sığorta təminatı | 14 |
| Maddə 22. Bütün bölmələrə aid ümumi istisnalar | 14 |
| Maddə 23. Sığortanın ərazisi | 15 |
| Maddə 24. Sığorta haqqının ödənilməsi | 15 |
| Maddə 25. Valyuta haqqında qeyd-şərt. | 15 |
| Maddə 26. Sığorta riskindəki dəyişikliklər | 15 |
| Maddə 27. Zərərlərin qarşısının alınması və azaldılması | 16 |
| Maddə 28. Sığortaçıya məlumat vermək və sığorta hadisəsini sübut etmək vəzifəsi | 16 |
| Maddə 29. Sığortaçı tərəfindən nəzarət | 17 |
| Maddə 30. Sığorta ödənişinin hesablanması və verilməsi | 17 |
| Maddə 31. Reqres (geriyə tələb) hüququ | 18 |
| Maddə 32. Sığorta ödənişini verməkdən imtina | 18 |
| Maddə 33. İkiqat sığorta | 19 |
| Maddə 34. Sığorta müqaviləsinə xitam verilməsi | 19 |

## ANLAYIŞLAR

Əgər Qaydaların məzmununda başqa hal nəzərdə tutulmamışdırsa, bu Qaydalarda istifadə olunmuş termin və ifadələr aşağıdakı mənaları daşıyır:

## ÜMUMİ

**Sığortaçı** – yalnız sığorta və təkrar sığorta fəaliyyətini göstərmək məqsədilə yaradılmış, qanunvericiliklə müəyyənləşdirilmiş qaydada xüsusi razılıq almış hüquqi şəxs olan sığorta təşkilatıdır.

**Sığortalı** – sığortaçı ilə müqavilə bağlayan (sığorta etdirən) və ya xeyrinə sığorta müqaviləsi bağlanan (sığorta olunan), yaxud qanuna görə sığortalanmış sayılan fiziki şəxs (fəaliyyət qabiliyyəti məhdud olan və ya fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən məhdudlaşdırılan, eləcə də fəaliyyət qabiliyyəti olmayan şəxslərdən başqa) və ya hüquqi şəxs.

**Sığortanın obyekti** – sığortalanmış əmlak maraqları, risklər.

**Sığorta hadisəsi** – qanuna və ya sığorta müqaviləsinə görə sığorta ödənişinin, sığortalıya və ya üçüncü şəxslərə ödənilməsi üçün əsas olan hal.

**Sığorta müqaviləsi** — sığortalı ilə sığortaçı arasında sazişdir. Bu müqaviləyə görə sığortaçı sığorta hadisəsi zamanı sığortalıya sığorta ödənişi verməyi, sığortalı isə müəyyənləşdirilmiş müddətlərdə sığorta haqqını ödəməyi öhdəsinə götürür.

Sı**ğortanın müddəti – s**ığorta risklərinin sığortalanmış hesab olunduğu müddət.

**Sığorta məbləği** – sığorta müqaviləsinə və ya qanuna uyğun olaraq sığorta obyektinin sığortalandığı və sığortaçının öhdəliklərinin son həddi olan pul məbləği.

**Sığorta tarifi** – sığorta haqqının hesablanması üçün aktuari hesablamalarına əsasən müəyyən edilən faiz dərəcəsi.

**Sığorta haqqı** – sığorta müqaviləsinə və ya bu Qaydalara uyğun olaraq sığortalının sığortaçıya sığorta təminatı müqabilində verməli olduğu pul məbləği.

**Franşiza** – sığorta hadisəsi zamanı zərərin sığortaçı tərəfindən ödənilməyən hissəsi.

**Sığorta ödənişi** – sığorta hadisəsi baş verdikdə sığortalının əmlakına və ya əmlak mənafelərinə dəyən zərərin yerini doldurmaq üçün pul və ya natura şəklində ödənilən vəsait.

**Mühüm şərtlər** – sığortalı tərəfindən yerinə yetirilməməsi Sığortaçıya ödənişdən imtina etməyə və ya sığorta müqaviləsini ləğv etməyə hüquq verən sığorta müqaviləsinin şərtləri.

**Sığortanın ərazisi** – sığorta obyektinin sığortalanmış hesab olunduğu müəyyən ərazi hüdudları.

## İNŞAAT VƏ QURAŞDIRMA RİSKLƏRİNİN KOMPLEKS SIĞORTASI

Bu Qaydalar Azərbaycan Respublikasının «Sığorta haqqında» Qanununa, Mülki Məcəlləyə və dünya miqyasında tətbiq olunan ümumi işgüzar adət normalarına və təcrübəyə uyğun olaraq hazırlanmışdır.

### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Sığortaçı**

Bu Qaydalara əsasən Sığortaçı dedikdə «AzSığorta» Şirkəti başa düşülür.

**Maddə 2. Sığortalı (Sığorta etdirən)**

Bu Qaydalara əsasən, Sığortalı dedikdə müqavilə əsasında inşaat və ya quraşdırma işlərini həyata keçirən, əmlakı və ya əmlak maraqları sığortanın obyekti olan şəxs (podratçı) başa düşülür.

Bu Qaydalar daxilində Sığortalının hərəkətlərinə onun işçilərinin, rəsmi şəxslərinin, o cümlədən Azərbaycan Respublikasının qanunvericiliyinə, «Sığorta haqqında» qanuna, sığorta şəhadətnaməsinə, vəkalətnaməyə və ya vəzifə öhdəliklərinə əsasən Sığortalı adından çıxış etmək səlahiyyəti olan digər nümayəndələrinin hərəkətləri də aid edilir.

**Maddə 3. Faydalanan şəxs**

Sığorta müqaviləsi sığorta obyektinin qorunmasında maraqlı olan hər hansı başqa şəxsin - Faydalanan şəxsin xeyrinə də bağlanıla bilər. Faydalanan şəxsin adı sığorta şəhadətnaməsində göstərilməlidir.
Sığorta müqaviləsinin Faydalanan şəxsin xeyrinə bağlanması Sığortalını şəhadətnaməyə əsasən vəzifə və öhdəliklərindən azad etmir. Bu Qaydalarda və sığorta şəhadətnaməsi ilə Sığortalıya aid edilən bütün müddəalar sığortadan faydalanmaq niyyətində olan Faydalanan şəxsə də eyni ölçüdə aid edilir.

### BÖLMƏ I. MADDİ ZƏRƏR

**Maddə 4. Sığorta təminatı**

Bu sığorta Qaydalarına əsasən sığorta müqaviləsinin müddəti ərzində sığorta şəhadətnaməsində göstərilən, sığortalının mülkiyyətində və ya istifadəsində olan əmlaklara (avadanlıqlara, maşın və mexanizmlərə) tikinti-quraşdırma sahəsində olduqları və yaxud tikinti–quraşdırma işləri zamanı sığorta təminatına daxil olan, əvvəlcədən görünməyən və qəfil hadisələr nəticəsində dəyən zərərlərə sığorta şəhadətnaməsində göstərilən istisnalar nəzərə alınmaqla, sığorta məbləği həddində təminat verilir.
Sığortaçı həmçinin sığorta hadisəsi nəticəsində yaranan uçuq və dağıntıların (tullantıların) aradan qaldırılması və təmizlənməsi ilə əlaqədar Sığortalının xərclərinin əvəzini Şəhadətnamədə göstərilən xüsusi məbləğ çərçivəsində ödəməyə təminat verir.

**Maddə 5. Bu bölmə üzrə təminata daxil olmayan hallar (istisnalar)**

Sığortaçı maddi zərərdən sığorta üzrə aşağıda göstərilən zərərlər üçün məsuliyyət daşımır:

a) françiza məbləğini aşmayan zərərlər;

b) müqavilənin ləğv olunması, gecikmə, lazımi səviyyədə icra etməmə və s. nəticəsində yaranan cərimələr, sanksiyalar və ya hər hansı digər dolayı zərərlər;

c) düzgün olmayan layihə nəticəsində meydana gələn zərərlər;

d) qüsurlu materialların və ya icranın dəyişdirilməsinə, təmirinə və ya düzəldilməsinə çəkilən xərclər; lakin, bu istisna tez korlanan materiallarla məhdudlaşır və qüsurlu materiallardan və ya icradan yaranan qəzanın nəticəsində digər qüsurlu olmayan materiallar və ya icrada baş verən itki və zərərlərə aid edilmir;
e) köhnəlmə, aşınma, oksidləşmə, istifadə olunmama və qeyri-normal atmosfer şəraiti səbəbindən korlanma;
f) tikinti avadanlığının, mexanizmlərinin elektrik və ya mexaniki təsirlər hesabına korlanmasından, qəza, sınma və nasazlıq, soyuducu və ya digər mayenin donmasından, keyfiyyətsiz sürtkü materialının və ya yanacağın istifadəsindən və ya soyuducu mayenin azlığı və çatışmamazlığı səbəbindən yaranan zərərlər, lakin, bu cür hallar nəticəsində qurğu, maşın və mexanizmlərin zahiri dağılması baş verirsə, belə gözlənilməz zərərlərin əvəzi ödənilə bilər;
g) ümumi istifadə təyinatlı yollarda istifadə olunan nəqliyyat vasitələri, gəmilər və ya təyyarələrlə əlaqədar zərərlər;
h) sənədlərin, sənəd qovluqlarının, çertyojların, hesabların, pulların, hər-hansı növ markaların, borc öhdəliklərinin, banknotların, qiymətli kağızların, çeklərin məhv olması və ya zərərə uğraması;
i) yalnız inventarizasiya vaxtı aşkar edilmiş zərərlər.

**Maddə 6. Sığorta məbləği**

Sığorta məbləği sığorta müqaviləsinə (şəhadətnaməsinə) əsasən sığorta obyektinin sığortalandığı, Sığortaçının öhdəliklərinin son (maksimal) həddi olan və əsasında sığorta haqqı hesablanan məbləğdir.
Sığorta şəhadətnaməsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta məbləği sığortanın qüvvədə olduğu müddət ərzində baş verən bütün sığorta hadisələri ilə əlaqədar verilən sığorta ödənişinin maksimum miqdarını müəyyən edir. Sığorta müddəti ərzində bir və ya bir neçə sığorta hadisəsinə görə həyata keçirilən ödənişlərin ümumi məbləği sığorta məbləğindən artıq ola bilməz.

Bu Qaydalara əsasən sığorta şəhadətnaməsində göstərilən sığorta məbləği:

Bənd 1 üçün: Tikinti başa çatdıqda Sifarişçi (Prinsipal) tərəfindən təchiz edilmiş bütün materiallar, əmək haqqları, yol (nəqliyyat) xərcləri, gömrük rüsumları, vergilər və digər material və əşyalar da daxil olmaqla kontrakt işlərinin tam dəyərindən;

Bənd 2 və 3 üçün: Tikinti sahəsinin, avadanlıq və inşaat maşınlarının əvəz olunması xərclərindən; başqa sözlə sığortalanmış əşyaların eyni tipli və eyni güclü yeni əşyalarla dəyişdirilməsi xərclərindən;

az olmamalıdır və Sığortalı bildirilmiş əmək haqlarında və qiymətlərdə hər hansı dəyişiklik baş verdikdə sığorta məbləğini artırmağı və ya azaltmağı öhdəsinə götürür, bununla belə artma və ya azalma ancaq Sığortaçının bu barədə Şəhadətnamədə müvafiq qeydindən sonra qüvvəyə minir.

Sığorta hadisəsi zamanı sığorta məbləğinin sığortalanması tələb olunan məbləğlərdən aşağı olması aşkar olunarsa, bu sığorta ilə təminat verilən zərər məbləği sığorta məbləğinin sığortalanması tələb olunan məbləğə nisbətində azaldılacaqdır. Bu qayda bütün bölmələrə və bütün sığorta predmetlərinə şamil edilir.

**Maddə 7. Sığorta ödənişi və zərərlərin tənzimlənməsi**

Bu Qaydalar çərçivəsində hər hansı zərər baş verdikdə zərərlərin əvəzi aşağıdakı şəkildə ödəniləcəkdir:

a) təmir (bərpa) edilə bilən zərərlərdə – əmlakın qalıqlarının dəyəri çıxılmaqla, sığortalanmış əmlakın sığorta hadisəsindən əvvəlki vəziyyətinə gətirilə bilməsi üçün zəruri təmir (bərpa) xərcləri;

b) məhv olma zamanı - əmlakın qalıqlarının dəyəri çıxılmaqla, sığortalanmış əmlakın sığorta hadisəsindən əvvəlki faktiki dəyəri.

Lakin, bu ödənişlər yalnız müqavilənin müddəa və şərtlərinin yerinə yetirilməsi şərtilə, sığortaçının öhdəliyi həcmində və sığorta müqaviləsində nəzərdə tutulan sığorta məbləği hüdudunda həyata keçirilir.

Sığortaçı yalnız təmir və ya dəyişdirmə işlərinin lazımınca aparıldığını göstərən lazımi hesab və ya sənədlərin Sığortalı tərəfindən hazırlandığına əmin olduqdan sonra ödənişləri həyata keçirir. Təmir edilə bilən bütün zərərlər təmir yolu ilə aradan qaldırılmalıdır. Lakin, təmirə çəkilən xərclərin miqdarı sığortalanmış əşyanın hadisədən əvvəlki dəyərinə bərabər və ya ondan artıqdırsa, bu halda zərərlərin əvəzi yuxarıdakı «b» bəndində nəzərdə tutulan qaydada aparılır.

Hər hansı ilkin təmir xərclərini sığortalı ancaq o halda çəkir ki, belə təmir işləri yekun təmirin bir hissəsini təşkil edir və məcmu təmir xərclərini aşmır.
Hər hansı dəyişiklik, əlavə və / və ya təkmilləşdirmə məqsədilə çəkilən xərclər bu Qaydalar çərçivəsində ödənilmir.

**Maddə 8. Təminatın genişləndirilməsi**

İş vaxtından artıq, gecə və bayramlarda iş zamanı, həmçinin təcili nəqliyyat üçün çəkilən əlavə xərclər yalnız əvvəlcədən yazılı şəkildə razılaşdırmaqla, təminata daxil edilir.

**Maddə 9. Ətrafdakı əmlak**

İnşaat sahəsində (tikinti meydançasında) yerləşən və ya ona bitişik olan, Sifarişçi (Prinsipal) və ya Podratçının himayəsində və ya nəzarətində olan əmlaka dəyən zərər, yalnız belə zərər 1-ci Bölməyə əsasən sığortalanmış əmlakın (əşyaların) birbaşa quraşdırılması, tikintisi və ya sınağı zamanı və sığorta müddətində baş verərsə təminata daxil ediləcəkdir. Bunun üçün şəhadətnamədə ayrıca limit müəyyən oluna bilər. Bu təminat tikinti/quraşdırma maşınlarına və tikinti/quraşdırma sahəsinə və avadanlıqlarına tətbiq edilməyəcəkdir.

## BÖLMƏ II. ÜÇÜNCÜ ŞƏXSLƏR QARŞISINDA MÜLKİ MƏSULİYYƏT

### Maddə 10. Sığorta təminatı

Bu bölməyə əsasən sığorta (təminat) müddəti ərzində 1-ci Bölmə daxilində sığortalanmış əmlakın (əşyaların) birbaşa tikintisi və ya quraşdırılması zamanı inşaat sahəsində və ya ona bitişik ərazidə aşağıdakılarla nəticələnən və Sığortalının ödəmək üçün hüquqi məsuliyyət daşıdığı zərərlərə sığorta şəhadətnaməsində göstərilən məbləğ daxilində, lakin bu məbləği aşmamaq şərtilə təminat verilir:

a) qəza nəticəsində üçüncü şəxslərin bədən xəsarəti alması və ya xəstəliyi (ölümlə nəticələnib-nəticələnməməsindən asılı olmayaraq);

b) üçüncü şəxslərə məxsus əmlakın məhv olması və ya zədələnməsi.

Bu sığorta təminatının şamil edildiyi zərərlərə görə kompensasiya tələbi ilə əlaqədar, Sığortaçı əlavə olaraq Sığortalıya aşağıdakı zərərlərə görə də təminat verir:

a) hər hansı iddiaçının Sığortalıdan aldığı bütün iddia və məhkəmə xərcləri, və

b) Sığortaçının yazılı razılığı ilə çəkilmiş bütün xərclər və məsrəflər,

Lakin, bu Bölməyə əsasən Sığortaçının məsuliyyəti şəhadətnamədə göstərilən təminat limitini aşmamalıdır.

### Maddə 11. Bu bölmə üzrə təminata daxil olmayan hallar (istisnalar)

Sığortaçı aşağıdakı zərərlərin əvəzini Sığortalıya ödəmir:

1. Franşiza məbləğini aşmayan zərərlər;

2. Bu Qaydaların I Bölməsi ilə təminat verilmiş hər hansı əmlakın (əşyanın) düzəldilməsi, yenidən düzəldilməsi, təmiri, yaxşılaşdırılması, dəyişdirilməsi zamanı ortaya çıxan xərclər;

3. Əgər xüsusi olaraq razılaşdırılmamışdırsa, vibrasiya və ya daşıyıcı elementlərin (sütun, divar və s.) sökülməsi və ya zəiflədilməsi nəticəsində əmlaka, torpağa və ya binaya, o cümlədən belə zərər nəticəsində hər hansı şəxsin əmlakına və ya sağlamlığına dəyən zərər;

4. Aşağıdakılar nəticəsində yaranan məsuliyyətə görə:

a) Bölmə I-ə əsasən tam və ya qismən sığortalanmış layihə ilə əlaqəli olan Podratçının, Sifarişçinin (Prinsipialın) yaxud hər hansı başqa təşkilatın işçilərinin və ya fəhlələrinin və yaxud onların ailə üzvlərinin aldıqları bədən xəsarətləri və xəstəliklər;

b) Bölmə I-ə əsasən tam və ya qismən sığortalanmış layihə ilə əlaqəli olan Podratçının, Sifarişçinin (Prinsipialın) yaxud hər hansı başqa təşkilatın himayəsində, keşiyində və ya nəzarətində olan əmlakın və ya onların fəhlə və qulluqçularının əmlakının məhv olması və ya zədələnməsi;

c) ümumi istifadə təyinatlı yollarda istifadə olunan nəqliyyat vasitələri, gəmilər və ya təyyarələrin səbəb olduğu zərərlər;

d) belə razılığın olmaması halında da yaranan məsuliyyət istisna olmaqla, Sığortaçının ödəməyə razılıq verdiyi təminat məbləği.

### Maddə 12. Bölmə II-yə aid xüsusi şərtlər

1. Sığortaçının yazılı razılığı olmadan Sığortalı və ya onun adından heç bir kəs Sığortaçının məsuliyyətinə səbəb ola bilən etiraf etmək, təklif vermək, vəd etmək və ya sığorta ödənişi həyata keçirmək hüququna malik deyil; Sığortaçı istədikdə Sığortalı adından onun müdafiəsini təşkil etmək, zərərlərini ödəmək və ya zərərlərlə və ya ödəniş tələbləri ilə bağlı öz xeyrinə iddia qaldırmaq hüququna malikdir. Sığortaçı belə işlərin aparılmasında və ya hər hansı zərərin tənzimlənməsində tam səlahiyyətlidir və Sığortalı bütün tələb olunan sənədləri Sığortaçıya təqdim etməyə və ona zəruri yardım etməyə borcludur.

2. Hər hansı qəza zamanı Sığortaçı Sığortalıya bu hallara və ya bu hallardan hər-hansı birinə uyğun olan tələbləri və ya tələbi ödəmək üçün tam təminat məbləğini (daha əvvəlki ödənişlər çıxılmaq şərtilə) və ya zərərin ödənilməsi üçün kifayət olan daha az məbləği ödəyə bilər və bu bölmə çərçivəsində Sığortaçı bu bədbəxt hadisə üzrə ixtiyari gələcək məsuliyyətdən azad olacaqdır.

## BÖLMƏ III. SİFARİŞÇİNİN (PRİNSİPALIN) GƏLİR İTKİSİ

### Maddə 13. Sığorta təminatı

Bu bölməyə əsasən Sığortaçı, sığorta müddəti ərzində şəhadətnamədə göstərilən əşyaların (əmlakın), işlərin və ya onun bir hissəsinin Qaydaların I bölməsi ilə təminat verilən və xüsusi olaraq istisna edilməyən zərərə uğraması və ya məhv olması halında, və bunun nəticəsi olaraq inşaat, quraşdırma və sınaq işlərində sığortalanmış biznesin nəzərdə tutulan vaxtda başlanmasının gecikməsinə səbəb olan fasilə yarandıqda, sığortalanmış maraqla əlaqədar Sığortalıya nəzərdə tutulan qaydada və hədlərdə Sığortalının I bölmə içərisində Prinsipal (Sifarişçi) qismində göstərilməsi şərtilə təminat verməyə razılıq verir.

Bu bölməyə əsasən verilən sığorta təminatı dövriyyədəki azalma və işlərin qiymətinin artması nəticəsində əldən çıxan brutto gəlirlə məhdudlaşır və təminat olaraq ödəniləcək məbləğ aşağıdakı kimi təyin edilir:

– ümumi brutto gəlirin itkisinə görə: brutto gəlir faizinin təminat müddəti ərzində gecikmə olmayacağı halda əldə ediləcək gəlirə münasibətdə dövriyyənin azalan həcminə vurulması nəticəsində alınan məbləğ;

– iş xərclərinin artmasına görə: bu cür xərclərin çəkilmədiyi halda dövriyyədə yarana biləcək azalmanın qarşısını almaq və azaltmaq məqsədilə çəkilən, lakin brutto gəlir faizinin dövriyyənin azalan həcminə vurulması nəticəsində alınan məbləği aşmayan zəruri və ağlabatan əlavə xərclər.

Əgər bu bölməyə aid illik sığorta məbləği brutto gəlir faizinin dövriyyənin azalan həcminə vurulması nəticəsində alınan məbləğdən azdırsa, ödəniş məbləği mütənasib olaraq azaldılacaqdır.

### Maddə 14. Anlayışlar

14.1. Sığorta müddəti

Sığorta müddəti sığorta şəhadətnaməsində göstərilən tarixdən başlayaraq həmin şəhadətnamədə göstərilən və yaxud inşaat və quraşdırma risklərinin kompleks sığortası təminatının bitdiyi daha erkən zamanda sona çatan müddətdir.

14.2. Məsuliyyət müddəti

Sığorta şəhadətnaməsində bu Bölmə üçün müəyyən edilmiş və Sığortaçının sığortalanmış maraqlara təminat verdiyi müddət; bu müddət sığortalanmış biznesin başlanğıc tarixindən başlayır.

14.3. Sığortalanmış biznesin başlanması tarixi

Biznesin fəaliyyətə başlanması kimi bəyan edilən və bu Bölmə üzrə Şəhadətnamədə göstərilən tarix.

14.4. Gecikmə

Sığortalanmış biznesin şəhadətnamədə nəzərdə tutulan başlanma tarixi ilə həmin biznesin faktiki fəaliyyətə başladığı və ya başlamağa hazır olduğu tarix arasındakı dövr.

14.5. Dövriyyə

Yaşayış mənzillərinin icarəsinə, binalarda aparılan sığortalanmış biznesin gedişatında göstərilən xidmətlərə, satılan əşyalara, məhsullara və göstərilən xidmətlərə görə sığortalıya ödənilmiş və ya ödənilməli olan məbləğ (müəyyən edilmiş güzəştlər çıxılmaqla).

14.6. İllik dövriyyə

Gecikmə olmayacağı təqdirdə, sığortalanmış biznesin şəhadətnamədə nəzərdə tutulan başlanma tarixindən sonrakı 12 ay ərzində sığortalının əldə edə biləcəyi dövriyyə.

14.7. İllik brutto gəlir

İllik dövriyyənin müəyyənləşdirilmiş əməliyyat xərclərindən artıq olan hissəsinə bərabər olan məbləğ.
Müəyyənləşdirilmiş əməliyyat xərcləri dedikdə, sığortalanmış biznesin idarə edilməsi üçün çəkilən və dövriyyədə müstəqil şəkildə göstərilən dəyişən xərclər başa düşülür.

14.8. Brutto gəlirin faizi

Gecikmə olmayacağı təqdirdə təminat müddəti ərzində dövriyyədən qazanıla bilən gəlirin faizlə dərəcəsi

14.9. Təminat müddəti

Gecikmə olmayacağı təqdirdə sığortalanmış biznesin başlanacağı, sığortalanmış biznesin nəticələrinə təsir göstərən, Şəhadətnamədə Bölmə üzrə göstərilmiş məsuliyyət müddəti daxilində olan müddət. Bu müddət üçün şəhadətnamədə müvafiq «müddət franşizası» müəyyən edilir ki, Sığortaçının məsuliyyəti həmin müddət keçdikdən sonra başlayır və zərərin məbləği 1 günlük ortalama zərərin gecikmə günlərinə vurulması yolu ilə hesablanır.

**Maddə 15. Bu bölmə üzrə təminata daxil olmayan hallar**

Sığortaçı aşağıdakı hallara görə məsuliyyət daşımır:

1. Şəhadətnamədə göstərilən «müddət franşizası» ərzində baş verən zərərlər:
2. Şəhadətnamədə başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakı halların birbaşa və ya dolayı nəticəsində tikintidə – quraşdırmada yaranan gecikmə;

   a) əgər bü cür zərərin nəticəsində yaranan gecikmənin sığortalanması xüsusi olaraq razılaşdırılmamışdırsa, Bölmə I daxilində Qoşma / əlavə (Endorsment) vasitəsilə sığortalanmış zərərlər;
   b) ətrafdakı əmlaka dəyən zərər;
   c) zəlzələ, vulkan püskürməsi, sunami;
   d) əlavə olaraq (Qoşma ilə) razılaşdırılmamışdırsa, prototip xarakterli inşaat – quraşdırma işlərinə dəyən zərər;
   e) İnşaat maşın və mexanizmlərinə, avadanlıqlara dəyən zərər;

3. Aşağıdakıların birbaşa və ya dolayı nəticəsində tamamlama işlərinin gecikməsi:

   a) sığortalanmış biznesin idarə olunması üçün zəruri olan hər hansı materialların və ya idarəetmə vasitələrinin çatışmaması, məhv olması, xarab olması yaxud onlara dəyən zərər;
   b) müvafiq dövlət qurumları tərəfindən inşaata və əməliyyatlara qoyulan istənilən məhdudiyyətlər;
   c) məhv olmuş və ya zədələnmiş əmlakın təmiri və ya dəyişdirilməsi zamanı edilən dəyişikliklər, əlavələr, təkmilləşdirmələr, qüsurların və buraxılmış səhvlərin düzəldilməsi və aradan qaldırılması;
   d) məhv olmuş və ya zədələnmiş əmlakın təmiri və ya dəyişdirilməsi üçün pul vəsaitinin tapılmaması;
   e) Bu bölmə üzrə Şəhadətnamədə göstərilən əmlakın (əşyaların) məhv olması və ya zədələnməsi nəticəsində ehtiyacın yarandığından asılı olmayaraq, Şəhadətnamədə göstərilməyən əmlakın (əşyaların) təmiri.

4. Cərimələr və ya sanksiyalar, icra edə bilməmə, müqavilənin ləğvi və ya pozulması, gec tamamlama və ya sifarişlərin yerinə yetirilməməsi də daxil olmaqla, ixtiyarı xarakterli dolayı zərərlər və ya məsuliyyət.

III bölməyə tətbiq edilən müddəalar

**Maddə 16. Sığorta müddətindəki dəyişiklik**

Sığorta şəhadətnaməsinin I Bölməsi üzrə sığorta müqaviləsinin müddətinin artırılması bu Bölmə üzrə sığorta müddətinin avtomatik uzanmasına səbəb olmur.

Sığortalı bu Bölmə üzrə sığorta müqaviləsinin müddətinin artırılmasını mümkün olan ən erkən zamanda yazılı şəkildə xahiş etməli və müddətin uzadılmasına səbəb olan hallar barədə məlumat verməlidir. Bu Bölmə üzrə belə bir dəyişiklik yalnız xüsusi olaraq yazılı şəkildə razılaşdırıldıqdan sonra qüvvəyə minəcəkdir.

Sığortalanmış biznesin Şəhadətnamədə əks olunmuş başlanma tarixindəki hər hansı dəyişiklik bildirilməli və yalnız xüsusi olaraq yazılı şəkildə razılaşdırıldıqdan sonra qüvvəyə minəcəkdir.

**Maddə 17. Zərərlərin tənzimlənməsi**

İllik dövriyyənin, brutto gəlir faizinin və standard dövriyyənin hesablamasında aşağıdakı məqamlar nəzərə alınmalıdır:

a) işin başlanmasından sonrakı 12 ay ərzində sığortalanmış biznesin nəticələri;

b) gecikmə olmadığı halda sığortalanmış biznesə təsir edəcək müxtəlif amillər və xüsusi şərtlər;

c) iş başlandıqdan sonra sığortalanmış biznesə təsir edən müxtəlif amillər və xüsusi şərtlər.

Son rəqəmlər gecikmə baş vermədiyi təqdirdə sığortalanmış biznesin planlaşdırılmış başlanma tarixindən sonra əldə edə biləcəyi nəticələri əks etdirir.
Əgər təminat müddəti ərzində baş vermiş zərərin nəticəsində Sığortalının zərərə uğramış binada da əldə edə biləcəyi gəlirini təmin etmək üçün alternativ yerlər (bina, tikili) təqdim edilmişdirsə, ödəniləcək təminat məbləğini hesablayarkən bu nəzərə alınmalıdır.

### Maddə 18. Sığorta haqqının hesablanması

Sığorta haqqı illik sığorta məbləğinə əsasən hesablanır. Bununla bərabər, bu Bölmə üzrə sığorta haqqı müəyyən olunarkən məsuliyyət müddəti nəzərə alınacaqdır.

### Maddə 19. Bu bölməyə aid xüsusi şərtlər

1. Bu bölmə daxilində gecikməyə səbəb olan və ödəniş tələbinin yaranmasına gətirib çıxaran hadisə zamanı:

a) Sığortalı belə hallar barədə dərhal Sığortaçıya məlumat verməli, nəzərdə tutulmuş tamamlama tarixində gecikməyə səbəb ola biləcək risklər barədə məlumatlar sığorta şəhadətnaməsinə daxil edilməlidir;
b) Hər hansı mümkün gecikmənin qarşısını almaq və ya azaltmaq üçün Sığortalı inşaat-quraşdırma işlərinə mane ola biləcək istənilən halları azaltmaq və limitlərini müəyyən etmək məqsədilə müvafiq tədbirlər görməli, görməyə çalışmalı və ya belə tədbirlərin görülməsinə icazə verməlidir.
c) Sığortalı və ya onun adından səlahiyyətləndirilmiş hər bir şəxs Şəhadətnamə ilə sığortalanmış hər hansı tərəfin maraqlarına zərər vurmadan hadisənin mümkün səbəblərini və zərərin həcmini, onun sığortalanmış əmlak üzərindəki təsirlərini müəyyənləşdirmək məqsədilə məsul podratçı və ya subpodratçılarla danışıqlar aparmaq, sığortalanmış biznesin başlanma tarixində ola biləcək gecikmənin minimuma endirilməsi imkanlarını təhlil etmək və zərurət yarandıqda belə gecikmənin qarşısını almaq və ya azaltmaq üçün tövsiyyələr vermək məqsədilə inşaat-quraşdırma işlərinin aparıldığı sahəyə daxil olmaq imkanına sahib olmalıdır.
Yuxarıda göstərilən hallar zamanı Sığortalı və ya onun adından çıxış edən hər hansı bir şəxs Sığortaçını aldatmağa və ya fikrini yayındırmağa yönəlmiş hərəkətlər edərsə, yaxud Sığortaçının tövsiyyələrini yerinə yetirməzsə, Sığortaçı bu Bölməyə əsasən bütün təminatlardan imtina etmək hüququna malikdir.

2. Bu Bölməyə əsasən sığorta hadisəsi nəticəsində ödəniş tələbi irəli sürüldükdə, Sığortalı hadisənin bütün detallarını əks etdirən yazılı məlumatı gecikmə baş verdikdən sonrakı 30 gün ərzində və ya Sığortaçının yazılı təsdiq etdiyi digər müddət ərzində Sığortaçıya çatdırmağa borcludur. Bundan başqa, Sığortalı öz hesabına fəaliyyəti ilə bağlı hesabat kitablarını, maliyyə sənədlərini, hesab-fakturaları, balans sənədlərini və ya zərərin baş verdiyini yaxud zərərin həcmini araşdırmaq və təsdiq etmək üçün əhəmiyyət kəsb edən digər sənədləri, sübutları, məlumatları, izahatları, həmçinin müvafiq dövlət qurumu tərəfindən hadisənin doğruluğunu təsdiq edən arayışları öz hesabına hazırlamalı və Sığortaçıya təqdim etməlidir.
3. Sığorta ödənişi, məbləğin yekun olaraq müəyyən olunmasından sonra 1 ay ərzində ödənilir.
Sığortaçılar aşağıdakı hallarda ödənişi təxirə salmaq (gecikdirmək) hüququna malikdir:
a) zəruri sübutlar təqdim olunmadığına görə Sığortalının sığorta ödənişini almaq hüququna dair şübhələr olduqda;
b) zərərin və ya sığortalanmış biznesin fəaliyyətə başlama tarixində yaranan gecikmənin nəticəsində sığortalıya qarşı polis və ya istintaq qurumları tərəfindən təhqiqatlar başlandıqda, belə araşdırma sona çatanadək.

## BÖLMƏ IV. BÜTÜN BÖLMƏLƏRƏ AİD ÜMUMİ ŞƏRTLƏR

### Maddə 20. Müddəaların aidiyyatı

Bu Qaydaların sığortalıya aid olan bütün müddəaları sığorta müqaviləsində göstərilmiş nəqliyyat vasitəsini idarə etmək səlahiyyəti olan sürücüyə və sığortalanmış şəxslərə də eyni dərəcədə aid edilir.

Bu sığortanın məqsədləri üçün sığortalının fəaliyyətinə qanuna, sığorta müqaviləsinə, vəzifə təlimatlarına, etibarnaməyə və ya mövcud adətlərə müvafiq olaraq sığortalının adından çıxış etmək üçün səlahiyyətləndirilən işçilərinin, vəzifəli şəxslərinin və digər nümayəndələrinin hərəkətləri də aid edilir.

### Maddə 21. Sığorta təminatı

Bu Qaydalar podratçının bütün tikinti-quraşdırma risklərinin sığortasını nəzərdə tutduğu üçün sığorta təminatı yalnız sığorta müqaviləsində (şəhadətnaməsində) göstərilmiş Bölmələr üzrə verilmiş hesab olunur. Sığorta şəhadətnaməsi ilə bu Qaydaların bir, bir neçə və ya bütün bölmələri üzrə sığorta təminatı verilə bilər. Belə olan halda tərəflər arasındakı münasibətlərə həmin Bölmənin müddəaları və bütün bölmələrə aid olan ümumi qaydalar tətbiq edilir, və sığortaçı yalnız həmin bölmə üzrə verilmiş təminata görə məsuliyyət daşıyır.

### Maddə 22. Bütün bölmələrə aid olan ümumi istisnalar

Əgər sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, aşağıdakı halların nəticəsində ortaya çıxan hər hansı zərərin əvəzi bu sığorta ilə ödənilmir:

22.1. Sığortalının (zərərçəkənin) qərəzli hərəkətləri;

22.2. İonlaşma, radiasiya və yaxud nüvə yanacağının və ya nüvə tullantılarının istifadəsindən, həmçinin bu istisnanın məqsədləri üçün özünü dəstəkləyən hər hansı atom nüvəsinin parçalanması prosesi daxil olmaqla, nüvə yanacağının alovlanmasından ortaya çıxan radioaktivlik nəticəsində ətraf mühitin çirkləndirilməsindən bilavasitə yaxud dolayı yolla yaranan hər hansı məsuliyyət, zərər və ya ziyan;

22.3. Bu Qaydalara əsasən aşağıda göstərilən hər hansı bir hadisə nəticəsində hər hansı vəsatətin (tələbin) ortaya çıxması hallarında, sığortalı bədbəxt hadisənin, itkinin, zərərin və ya məsuliyyətin (qanunvericiliyin tələblərinin bunu tələb etdiyi dərəcədə yerinə yetirilməsi halları istisna olmaqla) aşağıda göstərilən hər hansı hadisələrdən və ya onların nəticələrindən asılılığının, əlaqəsinin və onların nəticəsi olmamasını sübut etməlidir. Zəruri sübutların olmaması halında, sığortaçı belə vəsatətə görə heç bir məsuliyyət daşımır;

Belə hadisələrə daxildir:

Müharibə, hərbi əməliyyatlar, xarici ölkələrin basqınları, düşmən aktları, hərbə bənzər əməliyyatlar (müharibənin elan olunub-olunmamasından asılı olmayaraq), vətəndaş müharibəsi, qiyamlar, buntlar, tətillər, ictimai intizamsızlıqlar, əmək ixtişaşları, üsyanlar, inqilablar, hakimiyyətin qəsb olunması və qəsb edənlərin əməlləri, həbs qoyulma və ya müsadirə, yaxud bunları etməyə cəhd, və ya yuxarıda sadalanan hadisələrdən hər hansı birinin bilavasitə və ya dolayı nəticəsində, həmçinin qanunsuz və ya qərəzli hərəkətlər vasitəsi ilə və ya hər hansı qanunsuz təşkilatın adından və ya onunla birlikdə hərəkət edən şəxslər tərəfindən törədilən aktların nəticəsində baş verən hadisələr.

**Maddə 23. Sığortanın ərazisi**

Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmayıbsa, sığorta təminatı Azərbaycan Respublikasının ərazisini, bir çox hallarda isə inşaat-quraşdırma işlərinin aparıldığı konkret inşaat sahəsini əhatə edir. Sığortanın ərazisi, sığortaçının bu barədə qabaqcadan xəbərdar edilməsi və onun yazılı formada razılığının alınması şərtilə genişləndirilə bilər.

**Maddə 24. Sığorta haqqının ödənilməsi**

Sığorta haqqı onun sığortaçının bankdakı hesablaşma hesabına daxil olduğu və ya sığortaçı tərəfindən nağd ödəniş formasında alındığı gün ödənilmiş hesab olunur. Sığorta haqqı (onun razılaşdırılmış ilk hissəsi və sonrakı hissələri) sığorta şəhadətnaməsində göstərilən tarix(lər)də ödənilməlidir. Sığorta müqaviləsində başqa hal nəzərdə tutulmamışdırsa, sığorta haqqı (və ya onun razılaşdırılmış ilk hissəsi) göstərilən müddət ərzində sığortaçıya ödənilmədikdə, həmin müddət bitdiyi andan sığorta müqaviləsi etibarsız sayılır. Əgər sığorta haqqının hissələrlə ödənilməsi nəzərdə tutulmuşdursa, sığorta haqqının sonrakı hissələri sığorta müqaviləsində göstərilmiş müddət ərzində ödənilməməsi halında, tərəflərin başqa cür razılaşdığı hallar istisna olmaqla, sığorta müqaviləsi sığorta haqqının ödənilmiş hissəsinə müvafiq olan müddətin bitməsindən sonra öz qüvvəsini itirir.

**Maddə 25. Valyuta haqqında qeyd-şərt**

Sığorta məbləğləri, franşizalar və tələblər xarici valyuta ilə ifadə olunmuşdursa, bütün ödənişlər ya Azərbaycan Respublikası Milli Bankının ödənişin həyata keçirildiyi tarixə olan rəsmi məzənnəsi əsasında Azərbaycan manatı ilə, ya da Azərbaycan Respublikasının valyuta qanunvericiliyinə müvafiq olduğu hallarda hər hansı xarici valyuta ilə həyata keçirilə bilər.

Əgər sığorta ödənişinin verilməsi üçün əsas olan sənədlər Azərbaycan manatı və ya sığorta müqaviləsinin valyutasından fərqli valyutada ifadə olunmuşdursa, sığorta müqaviləsinin ifadə olunduğu valyutaya çevirmə Azərbaycan Respublikası Milli Bankının həmin sənədin buraxıldığı tarixə uyğun rəsmi məzənnəsi əsasında həyata keçirilir.

**Maddə 26. Sığorta riskindəki dəyişikliklər**

24.1. Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində sığortalı sığorta müqaviləsi bağlanan zaman sığortaçıya bildirdiyi əhəmiyyətli halların dəyişilməsi, həmçinin sığorta riskinə əhəmiyyətli dərəcədə təsir edə biləcək və ona məlum olan bütün digər hallar barədə sığortaçıya təxirə salınmadan məlumat verməlidir.

24.2. Sığortaçı sığorta riskinin artmasına gətirib çıxaran hallar haqqında məlumat əldə etdikdən sonra aşağıda göstərilən hərəkətləri etmək hüququna malikdir:

1. sığorta müqaviləsinin şərtlərini və müddəalarını dəyişmək, və/və ya
2. əlavə sığorta haqqının ödənilməsini tələb etmək, və ya
3. belə dəyişikliklərin baş verdiyi tarixdən sığorta müqaviləsini ləğv etmək.

**Maddə 27. Zərərlərin qarşısının alınması və azaldılması**

Bu sığorta ilə əhatə olunmasından asılı olmayaraq, sığortalı artıq baş vermiş istənilən zərər, xəsarət və yaranmış məsuliyyətin azaldılması və gələcəkdə baş verə biləcək belə halların qarşısının alınması məqsədi ilə bütün ağlabatan və zəruri tədbirləri görməyə borcludur. Sığortalının belə tədbirləri görməməsinin birbaşa və ya dolayı nəticəsi olaraq baş vermiş istənilən zərər,

xəsarət və yaranmış məsuliyyətə münasibətdə sığorta təminatı verilmir. Əmlakı xilas etmə, bərpa etmə və ya onun qorunub saxlanması məqsədi ilə görülən bütün belə tədbirlər bütün maraqlı tərəflərin mənafeyi üçün həyata keçirilmiş hesab edilir və tərəflərdən heç birinin hüquqlarına təsir etmir.

Belə tədbirlərin görülməsi zamanı sığortalı sığortaçıdan aldığı bütün təlimatlara əməl etməlidir.

Zərərlərin qarşısını almaq və ya həcmini azaltmaq üçün sığortalı mümkün tədbirləri görmədikdə belə tədbirlərin görülməməsi nəticəsində zərər məbləğində baş verən artım sığortaçı tərəfindən ödənilməyə bilər.

### Maddə 28. Sığortaçıya məlumat vermək və sığorta hadisəsini sübut etmək vəzifəsi

Sığortalı müqavilə bağlanarkən özünə məlum olan bütün əhəmiyyətli halları sığortaçıya bildirməlidir. Sığortaçının müqavilədən imtina etmək və ya onu məzmunu dəyişdirilmiş şəkildə bağlamaq qərarına təsir göstərə bilən hallar əhəmiyyətli sayılır. Belə bir hal da əhəmiyyətli sayılır ki, sığortaçı bu hal haqqında sığortalıya yazılı şəkildə aydın və birmənalı sorğu verir.

Əgər, sığortaçıya əhəmiyyətli hallar haqqında məlumat verilməzsə, o, müqavilədən imtina edə bilər. Sığortaçı gizli haldan xəbərdar idisə və ya sığortalı bu halı bildirməməkdə təqsirli deyildirsə, müqavilənin xitamı yolverilməzdir. Əhəmiyyətli hal haqqında bildirişdə yanlış məlumatlar olduqda da sığortaçı müqavilədən imtina edə bilər. Əgər məlumatların dəqiqsizliyi sığortaçıya məlum idisə və ya sığortalı yanlış məlumatların verilməsində təqsirli deyildirsə, müqavilədən imtina edilməsi yolverilməzdir. Bu məlumatlar haqqında bildiriş verildikdən sonra bir ay ərzində sığortaçı müqaviləni ləğv edə bilər.

Sığortalı təhlükə hallarına dair yazılı suallara cavab verməli olduqda, əgər o, barəsində suallar qoyulmamış halların üstündən qəsdən sükutla keçərək onları bildirməzsə, sığortaçı  bir ay ərzində müqaviləni ləğv edə bilər. Bu müddət məlumat vermək vəzifəsinin pozulmasından sığortaçının xəbər tutduğu andan başlanır. Sığortalıya müqavilənin ləğv edilməsi haqqında məlumat verilməlidir.

Sığortaçı müqaviləni sığorta hadisəsi baş verdikdən sonra ləğv etdikdə, əgər barəsində məlumat vermək vəzifəsi pozulmuş hal sığorta hadisəsinin baş verməsinə və sığortaçının öz vəzifələrini yerinə yetirməsinə təsir göstərməyibsə, o öz vəzifələrini yerinə yetirməkdən azad edilmir.

Müqavilə bağlandıqdan sonra təhlükənin artması müqavilənin bağlanmasına mühüm təsir göstərə bilərsə, sığortalı təhlükənin artması barədə sığortaçıya dərhal məlumat verməlidir. Bu halda sığortaçının bir aylıq müddəti gözləməklə müqaviləni ləğv etmək və ya sığorta haqqının müvafiq surətdə artırılmasını tələb etmək ixtiyarı vardır. Əgər sığortalı təhlükənin artmasını qəsdən doğurmuşdursa, sığortaçı müddəti gözləmədən müqaviləni ləğv edə bilər.

Sığorta hadisəsinin baş verməsindən xəbər tutan kimi sığortalı ləngimədən bu barədə sığortaçıya məlumat verməlidir. Sığorta hadisəsi baş verdikdən sonra sığortaçı sığorta hadisəsinin və (və ya) sığorta ödənişi miqdarının müəyyənləşdirilməsi üçün zəruri olan hər cür məlumatları sığortalıdan tələb edə bilər. Əgər sığortalı məlumat vermək vəzifəsini yerinə yetirməsə, lakin bunun nəticəsində sığortaçının mənafeləri əhəmiyyətli dərəcədə pozulmasa, sığortaçı öz vəzifəsindən azad edilməsinə əsas verən razılaşmaya istinad edə bilməz. Sığortaçı sığorta hadisəsi baş verdikdən və sığorta ödənişinin miqdarı müəyyənləşdirildikdən sonra öz vəzifələrini icra etməlidir.

Sığortalı müvafiq dövlət orqanlarını sığorta müqaviləsi üzrə sığorta ödənişinin verilməsi üçün əsas ola biləcək hadisənin baş verməsi barədə xəbərdar olduğu və ya buna borclu olduğu tarixdən dərhal sonra, sığortaçını, sığortaçının təyin etdiyi assistans şirkətini və qanunvericiliklə tələb olunan hər hansı digər səlahiyyətli qurumları isə ağlabatan ən qısa müddətdə hər bir halda ən geci 24 (iyirmi dörd) saat ərzində məlumatlandırmalıdır.

Sığorta hadisəsi faktının mövcudluğunu və onun səbəb olduğu zərərin məbləğini sübut etmək vəzifəsi sığortalının üzərinə düşür və sığortalı qanunvericilik və formalaşmış təcrübə ilə tələb olunan sənədlər də daxil olmaqla sığortaçını bütün zəruri sənədlərlə təmin etməlidir.

### Maddə 29. Sığortacı tərəfindən nəzarət

Əgər sığortanın qüvvədə olduğu müddət ərzində sığortalanmış əmlak məhv olarsa və ya zədələnərsə, sığortalı təmir-bərpa işlərinə başlamadan və maddi ziyanın fiziki sübutları itməmişdən (məhv edilməmişdən) əvvəl sığorta predmetlərinə baxış keçirmək üçün sığortacıya lazımi qədər vaxt və imkan verməlidir.

Sığortaçı sığorta hadisəsi və onun nəticələri ilə əlaqədar sığortalının bütün hərəkətləri üzərində nəzarət etməli və sığorta ödənişinin həyata keçirilməsinə təsir edə bilən bütün məsələlər haqqında qərar qəbul etmək imkanına malik olmalıdır. Sığortalı sığortacının tələbi ilə ona imkan dairəsində komək etməlidir. Sığorta hadisəsi ilə bağlı bütün rəsmi və qeyri-rəsmi təhqiqatlarda sığortaçı öz hesabına sığortalının maraqlarını təmsil və müdafiə etməyə haqlıdır. Sığortalı sığortaçının ilkin razılığı olmadan onun məsuliyyətinin tanınmasına yönəlmiş hər hansı bir hərəkət edə, saziş bağlaya və ya vəd verə bilməz.

### Maddə 30. Sığorta ödənişinin hesablanması və verilməsi

Sığorta müqaviləsində franşiza kimi göstərilmiş məbləğ sığortaçı tərəfindən əsaslı kimi qəbul edilən hər bir sığorta vəsatətinin (tələbinin) və/və ya bir hadisə üzrə irəli sürülən bir neçə vəsatətin yekun məbləğindən çıxılır və sığortaçı belə vəsatətin və ya vəsatətlərin franşizanın çıxılmasından sonra qalan məbləği üçün məsuliyyət daşıyır.

Françızanın tətbiqindən əvvəl sığortaçı tərəfindən əsaslı kimi qəbul edilən hər bir vəsatətə və ya eyni hadisə üzrə bir neçə vəsatətə münasibətdə ödəniləcək sığorta ödənişinin məbləği sığorta müqaviləsinin müvafiq bölməsində göstərilmiş müvafiq sığorta məbləğini və məsuliyyət hədlərini aşmamalıdır.

Sığortalının üçüncü tərəfdən təzminat alması halında, bu təzminatın məbləği franşızanın tətbiqindən əvvəl sığorta ödənişi məbləğindən çıxılır.

Sığorta ödənişinin həyata keçirildiyi tarixə sığorta haqqı tam ödənilməmişdirsə, sığortaçı ödənilməmiş sığorta haqqının məbləğini sığorta ödənişinin məbləğindən çıxmaq hüququna malikdir.

Sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində həyata keçirilən sığorta ödənişinin ümumi məbləği sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində baş verən hər bir sığorta hadisəsi üçün franşıza məbləğinin çıxılmasından əvvəl, sığorta müqaviləsində göstərilmiş müvafiq sığorta məbləğlərini və məsuliyyət həddlərini aşmamalıdır.

Qanunvericiliklə və bu Qaydalarla nəzərdə tutulmuş sığorta ödənişini verməkdən imtina edilməsi halları istisna olmaqla, sığortaçı və yaxud sığortaçının təyin etdiyi ekspert şirkəti sığorta hadisəsi ilə əlaqədar bütün sənədləri aldıqdan sonra 15 (on beş) gün ərzində ödəniş aparılmasının forması, qaydası və sairlə əlaqədar məlumatları əks etdirən ödənişə əsas verən sənədi (akt, razılaşma, protokol və s.) tərtib edir və razılaşdırmaq üçün bu sənədi, bundan sonra bu maddə daxilində «vəsatət edən» adlandırılacaq sığortalıya və/və yaxud sığortalanmış şəxsə, və/və yaxud üçüncü səxsə təqdim edir.

Vəsatət edən ödənişə əsas verən sənədi imzaladıqdan sonra, onu sığortaçıya qaytarır və sığortaçı bu sənədi aldığı gündən etibarən 5 (beş) gün ərzində sığorta ödənişini həyata keçirir.

Sığorta ödənişini verməkdən imtina halları olduqda, sığortaçı hadisə ilə bağlı bütün sənədləri aldıqdan sonra 5 gün ərzində ödəniş verməkdən imtina qərarı barədə imtinanın səbəblərini göstərməklə vəsatət edənə yazılı rəsmi məlumat verir.

### Maddə 31. Reqres (geriyə tələb) hüququ

Sığorta ödənişinin həyata keçirilməsindən sonra, bu sığorta ilə əvəzi ödənilən zərərlər üçün məsuliyyət daşıyan şəxsə qarşı sıgortalının tələb irəli sürmək hüququ, həmin ödəniş məbləği həddində reqres qaydasında sığortaçıya keçir.

Sığortalı sığortaçınının reqres hüququnun təmin edilməsi üçün öz imkanları çərçivəsində ona hər cür kömək göstərməli və sığortaçını tələb irəli sürməsi üçün zəruri olan bütün sənədlər, sübutlar və məlumatlarla təmin etməlidir.

Sığortalının hər hansı məhkəmədən kənar razılaşma və ya məhkəmə qərarı əsasında zərərə görə məsuliyyət daşıyan şəxslərdən aldığı təzminat məbləğləri ilk növbədə sığortaçının sığorta müqaviləsi üzrə həyata keçirdiyi sığorta ödənişlərinin əvəzinin ödənilməsinə xərclənəcəkdir. Sığortaçı ilə sığortalı arasında başqa cür razılaşdırıldığı və belə razılaşmanın sığorta müqaviləsində təsbit olunduğu hallar istisna olmaqla, sığortalının zərərlər üçün məsuliyyət daşıyan şəxsə qarşı tələb hüququndan imtina etməsi və ya sığortalının günahı üzündən bu hüquqdan istifadənin mümkün olmaması halında, sığortaçı sığorta ödənişini bütünlüklə və ya qismən ödəmək öhdəliyindən azad olunur və ödənilmiş sığorta ödənişinin tam və ya müvafiq hissəsinin qaytarılmasını tələb etmək hüququnu əldə edir.

### Maddə 32. Sığorta ödənişini verməkdən imtina

Aşağıdakı hallarda sığortaçı sığortalıya sığorta ödənişini verməkdən imtina etmək hüququna malikdir:

1. Sığortalının riskin dərəcəsini və yaxud sığorta hadisəsi ilə bağlı şəraiti müəyyən etmək üçün mühüm əhəmiyyət daşıyan hallar və ya sığorta müqaviləsinin qüvvədə olduğu müddət ərzində bu hallarda baş verən dəyişiklər, təhlükənin artması barədə bildiyi və ya bilməli olduğu məlumatları verməməsi və ya qəsdən yanlış məlumatlar verməsi;

2. Bu Qaydalarda nəzərdə tutulan mühüm şərtlərin yerinə yetirilməməsi ilə sığorta hadisəsi arasında əlaqənin olub-olmamasından asılı olmayaraq sığortalının sığorta müqaviləsində nəzərdə tutulan belə şərtlərə əməl etməməsi;

3. Yerinə yetirilmədiyi təqdirdə sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına gətirib çıxaran, sığortalı tərəfindən sığorta müqaviləsinə, bu Qaydalara və ya qanunvericiliyə əsasən ona həvalə edilən öhdəlik və şərtlərin yerinə yetirilməməsi. Bu halda sığortaçının verməməyə haqlı olduğu sığorta ödənişinin məbləği, belə yerinə yetirilməmənin sığorta hadisəsinin baş verməsinə və ya zərərin həcminin artmasına təsir dərəcəsinə müvafiq olmalıdır;

4. Sığortaçı tərəfindən sığorta hadisəsinin baş verməsi səbəblərinin araşdırılmasına sığortalı tərəfindən maneçilik törədilməsi;

5. Sığortalının sığorta hadisəsinin yaranmasına yönəldilən qərəzli hərəkətlər və ya sığorta hadisəsi ilə birbaşa səbəb əlaqəsində olan qəsdən cinayətlər törətməsi;

6. Sığortalının sığortalanmış əmlakın xilas edilməsi (qorunub saxlanması) və ya ona dəymiş zərərin azaldılması üçün lazımi və mümkün tədbirləri qəsdən görməməsi;

7. Sığorta obyekti və hadisəsi barəsində sığortalının sığortaçıya qəsdən yanlış məlumat verməsi.

### Maddə 33. İkiqat sığorta

Sığortalının sığorta müqaviləsində əhatə olunan risklərlə bağlı zərərlər üçün digər sığortaçı(lar)dan ödəniş almaq hüququ varsa, başqa sözlə əgər sığortalı eyni mənafeyi eyni riskdən bir neçə sığortaçıda sığortalamışdırsa və sığorta məbləğlərinin məcmusu sığorta dəyərindən yüksəkdirsə və ya digər sığortaçı ilə sığorta müqaviləsi olmasaydı, hər bir sığortaçının verməli olduğu ödənişlərin ümumi məbləği başqa səbəblərə görə bütün zərərdən yüksəkdirsə (ikiqat sığorta), sığortaçılar sığortalı ilə bağladıqları müqavilədə nəzərdə tutulan məbləğ həddində sığortalı qarşısında birgə borclular kimi, hər birinin məsuliyyət həddinə mütənasib olaraq məsuliyyət daşıyırlar. Lakin, sığortalının məcmu halda real zərərin miqdarından yüksək olan məbləği almağa ixtiyarı yoxdur.

Mənafeyini eyni zamanda bir neçə sığortaçıda sığorta etdirən şəxs bu barədə sığortaçılardan hər birinə dərhal məlumat verməlidir. Məlumatda bütün sığortaçıların şəxsiyyəti və sığorta məbləğinin miqdarları göstərilməlidir.

### Maddə 34. Sığorta müqaviləsinə xitam verilməsi

Sığorta müqaviləsində nəzərdə tutulmuş hallarda, habelə tərəflərin razılaşmasına əsasən müqaviləyə sığortalının və ya sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verilə bilər. Bu barədə tərəflər bir-birini, qanunla müəyyən edilən hallar istisna olmaqla, azı 30 gün əvvəl yazılı formada xəbərdar etməlidirlər. Sığorta müqaviləsi müqavilənin ləğvi tarixini özündə əks etdirən xəbərdarlığın sığortalının və ya sığortaçının müqavilədə göstərilən ünvanına göndərilməsilə, bu xəbərdarlıqda göstərilmiş tarixdən ləğv edilmiş sayılır. Bu xəbərdarlığın poçt vasitəsilə göndərilməsi, yuxarıda göstərilən kimi, həmin xəbərdarlığın edilməsi faktının sübut edilməsi üçün kifayətdir və sığorta müqaviləsi xəbərdarlıqda göstərilən tarixdən və vaxtdan etibarsız sayılır.

Sığorta müqaviləsinə sığortalının tələbi ilə vaxtından əvvəl xitam verildikdə, sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını ona qaytarır; əgər bu tələb sığortaçının bu sığorta qaydalarını pozması ilə bağlıdırsa o, sığorta haqlarını sığortalıya bütünlüklə qaytarır.

Sığorta müqaviləsinə sığortaçının tələbi ilə vaxtından əvvəl xitam verildikdə o, sığortalının sığorta haqlarını bütünlüklə qaytarır; əgər bu tələb sığortalının bu sığorta qaydalarını yerinə yetirməməsi ilə bağlıdırsa, sığortaçı çəkilmiş xərclər çıxılmaqla müqavilənin qurtarmamış müddəti üçün sığorta haqlarını qaytarır.

Sığorta müqaviləsi üzrə sığorta haqqının yenidən hesablanmalı olması halında, sığortaçı, bunlardan hansının daha yüksək olmasından asılı olaraq, artıq qazanılmış sığorta haqqını və ya hər hansı minimal və/və ya depozit sığorta haqqının qısa müddətli hissəsini saxlamaq hüququna malikdir.